**“Yol həm mədəniyyətdir, həm rahatlıqdır, həm müasirlikdir, həm də ölkənin səviyyəsini göstərir”**

**İlham ƏLİYEV**

# Azərbaycanın yolları inkişaf etmiş ölkələrin yollarından seçilmir



Ulu öndər Heydər Əliyevin memarı olduğu Azərbaycan bu gün başdan-başa çiçəklənir, tərəqqi edir və müasirləşir. Quruculuq işləri ölkənin hər yerində geniş vüsət alır, rayonlar gündən-günə abadlaşır. Çox yox, 10-12 il əvvəl paytaxt Bakını görənlər bu gün onu tanımır, heyranlıqla şəhərin gözəlliyinə tamaşa edirlər. İlk Avropa Oyunları ölkəmizdə başa çatandan sonra həm qonaqlarımız, həm də xarici turistlər Azərbaycan televiziya kanallarına razılıqla müsahibə verirdilər: “Bakı çox gözəldir, bizi valeh etdi. Xalqınız çox qonaqpərvərdir. Biz yenə gələcəyik...”

Əlbəttə, ölkəmizdə keçirilmiş I Avropa Oyunlarından sonra Azərbaycana, paytaxt Bakıya maraq daha da artmışdır. Yollarımız da əcnəbi qonaqlarımızda daha xoş təəssürat yaratmışdı. Gəlin etiraf edək ki, Azərbaycanın yollar şəbəkəsi inkişaf etmiş Avropa ölkələrinin yollarından heç də geri qalmır.

Müasir standartlar səviyyəsində olan yollarımız göz oxşayır. Artıq Azərbaycanda yol infrastrukturu tamamilə dəyişmiş, müasirləşmiş və təzələnmişdir. Təkcə keçən il 960 kilometr respublika və yerli əhəmiyyətli avtomobil yolları, 30 yeni körpü və yolötürücüləri tikilmiş və ya təmir edilmişdir. Bununla yanaşı, 960 min nəfər əhalisi olan 597 yaşayış məntəqəsini birləşdirən 1300 kilometr kənd yolları çəkilmiş və bu yollarda lazım olan bütün infrastruktur qurulmuşdur.

Yol infrastrukturunun yenilənməsi ölkəmiz üçün böyük əhəmiyyət kəsb edir. Rahat və təhlükəsiz yollar isə insanlar üçün, əlbəttə, həyatdır. Burada böyük Nazim Hikmətin sözləri yada düşür: “Ev doğulmaq və ölmək üçündür. Əsl həyat yollardadır.”

Bu gün paytaxt Bakıdan qardaş Gürcüstanın sərhədinə kimi uzanan 6-8 zolaqlı yol - İpək yolu rahatlığı ilə ürək açır. Təkcə Gürcüstana gedən yox, Qubaya, Balakənə, Qəbələyə, Astaraya uzanan yollar da müasirliyi ilə seçilir, xoş ovqat yaradır və insanları razı salır. Sözün əsl mənasında, indi inamla deyə bilərik ki, Azərbaycanın yollar şəbəkəsi rahatlığın güzgüsüdür.

Hazırda ümumi yol infrastrukturunun inkişafına diqqəti artıran yollarımızı inşa edən, yenidən quran Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin “Azəryolservis” Açıq Səhmdar Cəmiyyəti nailiyyətlərini artırır. Son illərdə respublikada nəqliyyat infrastrukturunun müasirləşdirilməsi istiqamətində xeyli yeniliklərə imza atan “Azəryolservis” ilk növbədə I Avropa Oyunlarının açılış və bağlanış tədbirlərinin keçirildiyi Olimpiya stadionu ətrafında ümumi uzunluğu 14.8 kilometr 4-6 zolaqlı yeni yollar inşa etdi. 294 və 509 metr uzunluğunda iki avtomobil tuneli, 5 aşırımdan ibarət 167 və 205 metr uzunluğunda iki avtomobil körpüsü, uzunluğu 783 metr olan piyada yolu, yol üzərində 85 metrlik piyada tuneli və 115 metr uzunluğunda kompleksə daxil olan üçüncü körpü, piyada körpüsü tikildi.

Bakı Olimpiya stadionunda 3100 yerlik avtomobil parkı, Media kəndində nəqliyyat terminalı, Atletlər kəndinin yaxınlığında avtobus meydançası, o cümlədən Avropa Oyunları parkı da həmin müddətdə istifadəyə verildi.

Ümumiyyətlə, I Avropa Oyunları keçirilmiş 21 idman obyektinə gedən əsas yollar şəbəkəsində infrastruktur yenilənmişdir. “Azəryolservis” bu məqsədlə “Azərbaycanda avtomobil yolları şəbəkəsinin yeniləşməsinə və inkişafına dair 2006-2015-ci illər üzrə Dövlət Proqramı”na uyğun olaraq işin ahəngini heç vaxt zəiflətmir. Əksinə, gördüyü işlərin sürət və keyfiyyətini bir qayda olaraq ön plana çəkir.

İlk Avropa Oyunları ərəfəsində Bakı Olimpiya stadionu ətrafındakı yolların tikintisindən sonra ən mühüm layihələrdən biri də Bakı Su İdman Mərkəzinə gedən yolların salınması əsas prioritet məsələ kimi ortaya çıxdı. Dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə burada uzunluğu 6630 metr olan, son texnologiyalar əsasında müasir standartlara cavab verən yeni 4-6 zolaqlı yollar salındı. Yeni yol həmin ərazidə nəqliyyatın təhlükəsiz və maneəsiz hərəkəti baxımından bu gün də mühüm rol oynayır. Bundan əlavə, Əhəd Yaqubov küçəsi, Dövlət Bayrağı Meydanı və Bibiheybət yolu istiqamətində vətəndaşların hərəkətini təmin etmək üçün uzunluğu 226 metr, eni 8 metr, hündürlüyü isə 4 metr olan müasir tipli piyada keçidi inşa olundu.

İlk Avropa Oyunları ərəfəsində yeni salınmış yollardan biri də Təchizat bazasına gedən yol oldu. “Azəryolservis” ASC-nin kollektivi 6 kilometr uzunluğunda olan 2 zolaqlı yolu qısa müddətdə başa çatdıra bildi. Bu yolda 29.7 min kvadratmetr sahəyə asfalt-beton örtüyü döşəndi. Bununla yanaşı, Suraxanı rayonundakı “Atəşgah” məbədinə gedən 4.9 kilometrlik yolda da təmir işləri aparıldı və 40.7 min kvadratmetr sahəyə asfalt-beton döşəndi.

“Azəryolservis” ASC-nin yol işçiləri Heydər Əliyev prospektində də təmir-tikinti işlərini sürətləndirdilər. Qısa müddətdə prospektin görkəmi tamamilə yeniləndi. Heydər Əliyev Mərkəzindən Böyükşor yol qovşağınadək olan 6.4 kilometr hissəsindən əsas və köməkçi yollar da daxil olmaqla əsaslı şəkildə təmir edildi. 307.2 min kvadratmetr sahəyə asfalt-beton döşəndi. Ayırıcı zolaqlarda və yol kənarlarında səki daşları yeniləri ilə əvəzləndi, zolaqlarda və səkilərdə 11 min kvadratmetr sahəyə bəzək daşları düzüldü.

Heydər Əliyev prospektinin zəruri olan ərazilərində yağış-kanalizasiya sistemi quruldu, yeni yağış barmaqlıqları yerləşdirildi, kommunikasiya xətlərinin dəmir-beton plitələri və üst qapaqları dəyişdirildi, yolun kənarında yaşıllıq zonası salındı. Prospektdə olan Bağırov körpüsündə və tunellərdə yeni işıqlandırma sistemləri quraşdırıldı.

“Azəryolservis”in Heydər Əliyev prospektində yerüstü piyada keçidlərinin üzlüklərinin və işıqlandırma sistemlərinin yenilənməsi bu gün də hər kəsdə xoş təəssürat yaradır. Həmin istiqamətdə 6 yerüstü piyada keçidinin hər biri ayrı-ayrılıqda yeni bir görkəm aldı.

Az keçməmiş sürücülərin səbirsizliklə gözlədikləri Zığ-Hövsan yolunun yenidən qurulmasına start verildi və layihənin birinci hissəsinin icrası uğurla yekunlaşdırıldı. İndi sürücülər bu yolda tam rahatlıq tapırlar. 1,2 kilometrlik bu yol hər iki istiqamətdə 3 olmaqla 6 zolaqdan ibarətdir. Zığ-Hövsan yolunun hərəkət hissəsinin eni 13 metr olmaqla ümumi eni 35 metrdir. Ümumilikdə bu yolda 37 min kvadratmetr sahəyə asfalt-beton örtüyü döşənmiş, yol boyu 2600 perimetr boyunca səki daşları düzülmüşdür.

İndi paytaxtın Yusif Səfərov və Fəzail Bayramov küçələrinin, Heydər Əliyev və Babək prospektlərinin kəsişmələrində yerləşən müxtəlif səviyyəli yol ötürücülərinin üzlüklərinin dəyişdirilməsi və işıqlandırma sistemlərinin yenilənməsi nəticəsində müasirləşən bu yol qovşaqları ətrafda olan hündürmərtəbəli binalara daha da gözəllik verir, sanki yeni bir ansambl yaradır.

Ələsgər Qayıbov küçəsi vaxtilə ulu öndər Heydər Əliyevin tapşırığına əsasən salınmışdı. Sonralar baxımsızlıq ucbatından həmin küçə yararsız hala düşmüşdü. Ziya Bünyadov ilə Heydər Əliyev prospektlərini birləşdirən Ələsgər Qayıbov küçəsi indi abadlığı ilə daha çox seçilir.

Nəqliyyat Nazirliyi “Azəryolservis” ASC-nin kollektivi Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən və “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illər üçün sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq Bakı-Quba-Rusiya Federasiyası sərhəd avtomobil yolunun 6-11-ci kilometr hissəsində yaranan tıxacın aradan qaldırılması məqsədilə çox mühüm addımlar atmağa başladı. ASC kollektivinin səyi nəticəsində Bakı-Quba-Rusiya Federasiyası sərhəd avtomobil yolundan Bakı-Ələt-Qazax magistralına birbaşa çıxışı təmin edilən Bakı dairəvi-1 avtomobil yolu tamamilə yenidən quruldu. Uzunluğu 13.7 kilometr olan Bakı dairəvi-1 avtomobil yolunun yalnız bir istiqamətində 181.5 min kvadratmetr sahə əsaslı təmir olundu. Təmir-tikinti işləri zamanı yol yatağında ortaya çıxan deformasiyaya məruz qalmış hissələr qazılaraq çıxarıldı və kənara daşındı. Həmin yerlərdə tam yeni yol yatağı salındı. Burada 8 min kubmetr torpaq işlərinə yekun vuruldu, təqribən 240 min kvadratmetr yeni asfalt-beton örtüyü salındı. Yüksək səviyyədə abadlaşdırma və yaşıllaşdırma işləri başa çatdırıldı. Təkcə bu yolda 6 min bəzək ağacı əkildi.










“Azəryolservis” ASC daha sonra paytaxtın Nobel prospektinə paralel olan “Ağ şəhər” bulvarı boyunca yeni dənizkənarı yolun çəkilişinə də imza atdı. Bu yolun tikintisi “Azəryolservis”in yol təsərrüfatında qazandığı uğurlardan ən önəmlisidir. Sahil boyu çəkilmiş bu yol 8 zolaqdan ibarətdir və müasir tələblərə cavab verməklə yanaşı, yüksək keyfiyyətlə inşa edilmişdir. Burada hərəkət zolağının eni 3.75 metrdir və hər birinin eni 8 metr olmaqla 3 piyada keçidi inşa edilmişdir. Müasir vəziyyətə gətirilən yol infrastrukturu isə ilk növbədə insanların təhlükəsizliyinə və rahatlığına təminat verir.

Güclü yağışlar zamanı səth sularının normal kənarlaşdırılması çətinlik yaradır. Yağış-kanalizasiya sistemi olmadığından bəzən yolun hərəkət hissəsi sıradan çıxır. Belə bir hal Nobel prospekti və Yusif Səfərov küçəsinin kəsişməsindən “Ağ şəhər”ə qədər olan 1.6 kilometrlik hissəsində baş verdi. “Azəryolservis”in kollektivi operativ olaraq bu hissədə təmir-tikinti işlərini keyfiyyətlə başa çatdırdılar. Eyni zamanda, burada 1 kilometrdən artıq yağış-kanalizasiya sistemi quruldu. Təqribən 30 min kvadratmetr ərazidə yeni asfalt-beton örtüyü döşəndi. Əlavə olaraq daha 13 min kvadratmetr sahədə də təmir işlərinə yekun vuruldu.

Hər ayı və rübü uğurla yola salan “Azəryolservis” ASC-nin əməksevər kollektivi cari ilin son aylarını da nailiyyətlərlə başa vurmuşdur. Belə ki, kollektiv yeni körpülər, tunellər və piyada keçidləri tikərək istifadəyə vermişdir. İnsanların rahatlığı və təhlükəsizliyini başlıca məqsəd sayan yol inşaatçıları yerüstü piyada keçidlərindən birini Azadlıq prospekti ilə Həsrət Ağamalıyev küçəsinin kəsişməsində 6 hərəkət zolaqlı yol üzərindən inşa edərək vətəndaşların ixtiyarına vermişdir. Bir aşırımlı, metal konstruksiyalı müasir yerüstü piyada keçidinin eskalatorlarla birlikdə ümumi uzunluğunun 82.12 metr, eninin 3-4 metr, hündürlüyünün isə 6 metr olması müasir standartlardan xəbər verir.

“Azəryolservis” ASC yeni yolların salınmasını, xüsusilə ön plana çəkir. İlk olaraq nəqliyyat vasitələrinin sıxlığının aradan qaldırılması istiqamətində çox mühüm layihə sayılan “Bakı Ağ Şəhər” layihəsi çərçivəsində Xəqani Rüstəmov küçəsində, Ziya Bünyadov prospektinə paralel olaraq Koroğlu metrosunadək olan hissədə, Buzovna-Mərdəkan-Qala, Qala-Pirallahı, Qala-Şüvəlan, Novxanı-Sumqayıt avtomobil yolunda tikinti işləri keyfiyyətlə başa çatdırılmışdır.

Ölkə başçısı İlham Əliyevin tapşırığına əsasən son aylarda ölkəmizin şəhər və rayonlarında da yeni yollar inşa edilmiş, mövcud yollar təmir olunmuş, körpülər tikilmiş və bərpa işləri aparılmışdır. Bütün bu görülmüş işlərin yekunu ümumilikdə regionların sosial-iqtisadi inkişafına böyük kömək göstərir. Təmir-tikinti işləri əsasən Ağdam, Xocavənd, Samux və Göyçay rayonları ərazisində, Tərtər-Hindarx yolunda, Ələt-Astara, Qovlarsarı-Qaraarx, Yuxarı Qarabağ kanalı-Beyləqan-Daşburun və Mallı Şıxlı-Ərəb Şahverdili, Bakı-Şamaxı-Yevlax yollarında aparılaraq ilk növbədə, region əhalisinin rahatlığı və təhlükəsizliyinə təminat yaradılmışdır.

Nəqliyyat Nazirliyi “Azəryolservis” ASC Bakı-Quba-Rusiya Federasiyası və Ələt-Astara-İran İslam Respublikası sərhəd avtomobil yollarını daim diqqət mərkəzində saxlayır. Çünki normadan artıq yüklənmiş ağır tonnajlı maşınların hərəkəti nəticəsində hər iki sərhəd yolu tez-tez deformasiyaya uğrayır. Məhz buna görə də ASC-nin kollektivi nəqliyyat vasitələrinin rahat və maneəsiz hərəkətini təmin etmək üçün bu yollarda təmir və bərpa işlərinin keyfiyyətini yaxşılaşdırır. Hər iki sərhəd avtomobil yolları “Azəryolservis” ASC-nin daim ciddi nəzarətindədir.

ASC yol inşaatçılarının fəaliyyəti təkcə bütün bu işlərlə bitmir. Kollektiv həm də Hacıqabul-Kürdəmir, Kürdəmir-Ucar-Yevlax, Bakı-Şamaxı-Yevlax, Bakı-Ələt-Qazax-Gürcüstan Respublikası avtomobil yolları və körpülərində də mövcud layihələr çərçivəsində təmir-bərpa işlərini davam etdirirlər.

Dövlət başçısı İlham Əliyevin tapşırığına uyğun olaraq yol inşaatçıları, eyni zamanda, paytaxtın Şəmsi Bədəlbəyli, Süleyman Rüstəm, Eldar Babayev, Ceyhun Hacıbəyli, Şəmsi Rəhimov, Arif Heydərov, Nizami, Nəcəfqulu Rəfiyev, Səttar Bəhlulzadə, Şəfayət Mehdiyev, Bəxtiyar Vahabzadə, Xurşudbanu Natəvan, Məmməd Səid Ordubadi və başqa küçələrdə təmir-tikinti işlərini beynəlxalq standartlara uyğun olaraq vaxtında təhvil vermişlər. Təkcə həmin küçələrdə təqribən 250 min kvadratmetr əraziyə yüksək keyfiyyətli asfalt-beton örtüyü döşənmişdir. Ümumilikdə cari ilin 9 ayı ərzində 181.1 kilometr yol tikilərək yenidən qurulmuşdur. Həmin yollardan 44.6 kilometri respublika əhəmiyyətli, 69.8 kilometri isə yerli əhəmiyyətli yollardır. Ümumi istifadə edilən avtomobil yollarında 10 yeni körpü tikilmiş, 2 körpü isə təmir edilmişdir. Ayrıca olaraq Bakı şəhərindəki yollarda 2 körpü, 2 tunel, 7 yerüstü və yeraltı piyada keçidi inşa olunmuşdur. Bütün avtomobil yollarının kənarları başdan-başa abadlaşdırılmış, 50 minə qədər bəzək ağacı və dekorativ kol əkilmişdir.

- Bütün bunların hamısını həyata keçirməklə ilk növbədə ölkə əhalisinin rahatlığını və təhlükəsizliyini təmin etməyə çalışırıq. Başlıca məramımız da elə budur. Yol infrastrukturunun inkişafı, əlbəttə, bu gün də, sabah da ölkənin əsas prioritet məsələsidir - deyə “Azəryolservis” ASC-nin sədr əvəzi Saleh Məmmədov söhbətə başlayır: - Danılmaz fakt budur ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi siyasətin ən mühüm istiqamətlərindən biri məhz yol infrastrukturunun inkişaf etdirilməsi olmuşdur. Biz, yol inşaatçıları, qürur duyuruq ki, Azərbaycanda yollar şəbəkəsinin tamamilə yenilənməsi dövlət başçısı İlham Əliyevin diqqət mərkəzindədir.

Müasirləşən yollarımızın istər paytaxt Bakı, istərsə də regionlar üçün əhəmiyyəti çox böyükdür. Çünki sərnişinlərin və daşınan yüklərin mənzil başına rahat, təhlükəsiz və maneəsiz çatması böyük önəm kəsb edir. Ən mühüm məsələ odur ki, İran İslam Respublikası, Rusiya Federasiyası və Gürcüstan Respublikası ilə iqtisadi əlaqələr də məhz bu yollar vasitəsi ilə möhkəmlənir.

Respublika Prezidenti İlham Əliyev bu il sentyabrın 17-də Kürdəmir və Ağsu rayonlarına səfəri zamanı Kürdəmirdə Mollakənd-Axtaçı-Öyləqulu avtomobil yolunun açılışında iştirak edərkən dediyi sözlər kollektivimizin məsuliyyətini daha da artırmışdır: “Mən dəfələrlə bu barədə demişəm, bir daha demək istəyirəm ki, bizim gördüyümüz bütün işlər xalqın maraqlarına xidmət edir. Bu yolların çəkilişi, infrastruktur layihələrinin icrası da bu məqsədi güdür - hər şey insanlar üçün, hər bir yerdə, hər bir rayonda yaxşı yollar, yaxşı tibbi xidmət, gözəl məktəblər olsun ki, insanlar bundan istifadə edib, rahat yaşasınlar”.

Artıq biz bu sözləri deviz kimi qəbul etmişik.

“Azərbaycanda ən müasir yol infrastrukturu yaradılacaq”. Möhtərəm Prezident İlham Əliyevin dediyi bu sözlər də kollektivimizin əsl fəaliyyət proqramına çevrilmişdir. Biz gələcəkdə daha böyük zirvələr fəth edəcək, Azərbaycanın iqtisadiyyatına yeni töhfələr verəcək və insanlara daha çox rahatlıq bəxş edəcəyik.

Onu da qeyd edim ki, qarşıdakı illərdə görəcəyimiz işlər çoxdur. Ölkəmizdə mükəmməl nəqliyyat-kommunikasiya infrastrukturunu daha da təkmilləşdirmək və formalaşdırmaq, texnoloji ardıcıllığa riayət etməklə regionlarda önəmli layihələr həyata keçirmək üçün səylərimizi artıracağıq.

...Biz qürur hissi keçiririk ki, müasir dünyanı çənginə almış iqtisadi böhranın olması ölkəmizdə həyata keçirilən nəhəng sosial layihələrə əngəl törədə bilmir. Çünki güclü dövlətimiz var və bütün bu uğurlu nəticələr ölkə Prezidentinin həyata keçirdiyi səriştəli, məqsədyönlü və uğurlu siyasətin - ulu öndər Heydər Əliyev siyasi kursuna uyğun yaranır və ölkəmizin iqtisadiyyatı möhkəmlənir, cəmiyyətin həyatı təzələnir. Yolların yeni, müasir səviyyədə qurulması bölgələrin də inkişafına imkan yaradır. Belə olduqda, əlbəttə, rayonlarımızın da siması gözəlləşir. Azərbaycan üçün bu yolların əhəmiyyəti daha da qiymətli olur.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev oktyabrın 6-da daha bir avtomobil yolunun - yenidən qurulmuş Göyçay-Ucar yolunun açılışında iştirak etmişdir.

Göyçay-Ucar avtomobil yolunun yenidən qurulması layihəsindən məlum olmuşdur ki, uzunluğu 20 kilometrə yaxın olan yeni yol iki hərəkət zolağından ibarətdir. Eni 12 metrə çatır. Üzərində müxtəlif qovşaqlar və bir dəmir yol körpüsü yerləşən bu yol Göyçay-Ucar arasında avtomobillərin rahat hərəkətini təmin edir. Yolun açılışı ilk növbədə bölgədəki iqtisadi inkişaf proseslərinə yeni təkan verəcək.

“Azəryolservis” ASC “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illər üçün sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na cavab olaraq daha da əzmlə çalışaraq ölkənin avtomobil yolları şəbəkəsinə yeni bir rövnəq verəcək, rahatlıq və təhlükəsizlik baxımından əhaliyə xoş bir ovqat bəxş edəcək.

Uğur olsun, “Azəryolservis!”



***Məhərrəm SƏFƏRLİ,***
***“Azərbaycan”***